# Tələbələrin şifahi və yazılı nitq bacarıqlarının inkişafında qrammatikanın rolu

**Nərminə Soltan qızı Quliyeva**
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) baş müəllimi*
**Ruqiyyə Fazil qızı Səfərova**
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) baş müəllimi*
**E-mail:** quliyevanermine55@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. X.D. Hacıyeva,
filol.ü.f.d., E.M. Abbasova

**Açar sözlər:** şifahi və yazılı nitq, tələbələr, tədris prosesi, xarici dil, qrammatika
**Ключевые слова:** устная и письменная речь, студенты, учебный процесс, иностранный язык, грамматика
**Key words:** oral and written speech, students, educational process, foreign language, grammar

Hal-hazırda Azərbaycan ilə inkişaf etmiş xarici ölkələr arasında əlaqələrin genişləndiyi və müxtəlif sahələrdə müqavilələrin bağlandığı bir dövrdə xarici dillərə, xüsusilə də ingilis dilinə olan tələbat gündən-günə artır. Bir sözlə, ingilis dili ölkələr arasında beynəlxalq dilə çevrilmişdir. Belə bir şəraitdə ingilis dilini öyrənmək istəyənlərin sayı artmışdır. Xüsusilə də ali məktəb tələbələrinin ingilis dilinə olan marağı da artmışdır. Tələbələrə ingilis dilini öyrənmək üçün onlarda dil və ya nitq, vərdiş və bacarıqlar formalaşdıraraq qrammatikanı tədris etmək lazımdır. Bunun üçün bu gün istifadə olunan müasir metodlara əsaslanaraq dərslik, dərs vəsaiti, əyani vəsaitlərdən və preduktiv nitq inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə köməyi olan çalışma sistemlərindən istifadə etmək lazımdır. Belə olduqda tədris prosesi daha səmərəli olur və müəllimlər qarşılarına qoyduqları məqsədlərə daha tez və effektli nail ola bilərlər.

Bildiyimiz kimi, xarici dilin tədrisinin əsas məqsədlərindən biri qrammatikanın tədrisinə yiyələnməkdir, yəni xarici dili öyrənən şəxs həmin dildə danışanın nitqini başa düşüb bu dildə öz fikrini ifadə etməyi bacarmalıdır. Qrammatikanın tədrisi mürəkkəb nitq fəaliyyəti olub bir sıra problemlərlə bağlıdır. Bəziləri isə hesab edirlər ki, qrammatikaya mexaniki surətdə, yəni çoxlu miqdarda modellər (cümlələr) öyrənməklə yiyələnmək olar.

Əlbəttə, bu yanlış fikirdir. Tədrisin aşağı mərhələsində ayrı-ayrı aspektləri öyrənmədən, yazılı və ya şifahi nitq bacarıqlarına yiyələnmədən, eşidib anlama vərdişləri olmadan, qrammatikanın tətbiqinə yiyələnmədən xarici dilin mənimsənilməsi qeyri-mümkündür. Qrammatikanın tədrisinin mənimsənilməsində dilin bütün aspektlərinin rolu böyükdür. Dinlənilən nitqi və ya oxunulan mətni başa düşmək üçün təkcə sözləri başa düşmək kifayət deyildir, bunun üçün dilin qrammatik quruluşuna da bələd olmaq lazımdır. Öz fikrini izah etmək üçün dilin qrammatikasının əhəmiyyəti daha çoxdur. Əgər deyilmiş fikir (cümlə) qrammatik cəhətdən düzgün qurulmasa onun məzmun və mənası səhv başa düşülər.

Dil öyrənənlər qrammatik çalışmaların tədrisinin öyrənilməsi dedikdə tələbələrdə qrammatik nitq mexanizmlərinin formalaşdırılması, daha doğrusu, onlara qrammatik nitq vərdişlərinin öyrədilməsi başa düşülür. Qeyd etmək lazımdır ki, Azərbaycan ali və orta məktəblərində

qrammatik çalışmaların tədrisinin qrammatik tərəfinin öyrədilməsi məsələsinə müəyyən diqqət yetirilmiş, yəni bu problemlə əlaqədar bəzi məqalə və tədqiqat işləri yazılmış olsa da, bu sahədə öz həllini tapmamış məsələlər hələ çoxdur.

Təlim fəaliyyəti zamanı tədrisin aşağı mərhələsində yazılı və şifahi nitq bacarıqlarının inkişafında qrammatik çalışmaların yeri və rolu məsələsinə və qrammatikanın effektiv yollarla öyrədilməsini qarşımıza məqsəd qoymuşuq. Çünki tədrisin bu mərhələsində öyrədilən vərdişlər nitqin inkişafının sonrakı mərhələlərində baza rolunu oynayır. Heç təsadüfi deyil ki, müxtəlif dövrlərin tanınmış metodistləri tədrisin ilkin mərhələsinə diqqət yetirilməsini məsləhət bilmişlər.

Müasir dövrdə ingilis dili geniş şəkildə isfifadə olunmaqdadır. Xarici dil kimi onun tədrisini hansı yollarla həyata keçirmək lazımdır? Qrammatikanın tədrisi geniş, yoxsa konkret şəkildə müəyyənləşməlidir?

Qrammatikanın tədrisinə qədim Misirdə başlanılmışdır. O, quruluş və mənanı özündə cəmləşdirdiyindən iki məfhuma malikdir: forma və funksiya. Cümlə ayrı-ayrı sözlərdən yarandığından, müəyyən qrammatik kateqoriyaya uyğunlaşır və bu da forma yaradır. Məsələn, jump-fel, red-sifət formasındadır. “Candy can rot your teeth” cümləsində “candy” sözü isim formasında, mübtəda funksiyasındadır. Məlum olduğu kimi, qrammatika - tərcümə metodu, audiolinqualizm, situasiya ilə tədris və bu kimi metod və yanaşmalar da qrammatik qaydaların təqdimatına və onların daha çox yazı fəaliyyətinə tətbiqinə geniş yer ayırırlar.

Həmçinin tədris proqramları, demək olar ki, qrammatik qaydaların düzəldilməsi və işlədilməsindən ibarət olur. Uzun müddət davam edən fərziyyə ikinci dil öyrənilməsi prosesində qrammatikanın lüğətdən vacib olduğunu göstərən fərziyyədir. İkinci dilin tədrisində əsasən bütün fikir qrammatik biliklərin öyrənilməsinə - cümlə quruluşuna, fel təsrifinə, zaman formalarının geniş işlədilmə formalarına, isim-sifət uzlaşmasına və başqa qaydaların izahatına yönəldilib, Bununla yanaşı bir çox dilçi alimlərin araşdırmaları sübut edir ki, lüğət qrammatikadan dil öyrənilməsində daha çox fundamental məna kəsb edir. Hələ 1972-ci ildə Britaniya dilçi alimi Vilkins elə bir sənəd çap edir ki, burada o, əsaslı şəkildə ənənəvi qrammatikanın tədrisinin əksinə olan kommunikativ yönlü tədris təklif edir. Bu tədrisdə öyrəncilər özlərini daha sərbəst şəkildə ifadə edə bilirlər. O, öz əsərində yazır: “Qrammatikasız çox az bir şeyi mənimsəmək mümkündür, lüğətsiz heç bir şeyi mənimsəmək mümkün deyil.” 1976-cı ildə isə Vilkins “Arzu edilən proqram” tərtib etdi. Burada keyfiyyət, vaxt, tərtibat və funksiya dilin kateqoriyalaşmasında əsaslı rol oynayır. Kommunikativ yanaşma istiqamətində sillabusların tərtibatına Vilkinsin işinə Avropa konsulluğu tərəfindən müraciət edildi. Kommunikativ yanaşma tədrisi effektli ünsiyyətə doğru istiqamətləndirirdi. 1970-ci illərin sonlarında funksional şəkildə tərtib edilən sillabuslarm əsasında ilk dərslik çap edildi. Kitabda təqdim edilən dərslərin çoxusu “təqdimetmə” və “təklif’ mövzusu ilə bağlı idi. Təqdim edilən qrammatik material cüt və qrup şəkilli yerinə yetirilən kommunikativ tapşırıqlarda öz əksini tapırdı. Onun fikirlərinə əsaslanaraq funksional tədrisi ənənəvi tədrislə müqayisə etmək maraqlı olar. Məsələn, “would” ənənəvi qrammatikada ilk olaraq zaman formalarından olan keçmişə nəzərən gələcək zaman formasının tərtibatında və sonra şərt budaq cümlələrində modal fel kimi təqdim edilirdisə (He said that he would write. If I fmished my work I would help you.), artıq funksional tədrisdə o, daha erkən və tez-tez işlədilən ifadəyə çevrilir, təklif, maraq, arzu, istək mənalarını kəsb edir (would you like...?).

Funksional sillabus qrammatik qaydaların kontekst daxilində təqdimatını irəli sürürdü. Funksional tədris elə ilk günlərdən tələbələri oxumağa həvəsləndirən, onları öyrənməyə bir məqsəd olduğunu dərk etdirən yanaşma kimi aşkarlandı. Funksional yanaşmaya əsaslanan

proqramın tərtibatı qeyri Standard şəkildə tərtib edilmişdir. Burada həmişəki kimi qrammatik qaydalar toplusuna deyil, anlayış və fəaliyyətə geniş yer ayrılır. Belə ki, anlayış bir "kontekst", fəaliyyət isə bu kontekstdə yerinə yetirilən xüsusi məqsədlərdir. Məsələn, kontekst "to have/has +ed/pıı" və anlayış "shopping" olarsa, tapşırıq tələbələri alış-veriş mövzusunda indiki bitmiş zamandan istifadə edərək bir fəaliyyəti yerinə yetirməyə istiqamətləndirir. Funksional yanaşmaya əsaslanaraq proqram tərtib edərkən bir çox problemlər də üzə çıxır. İlk mövzu necə olmalıdır? Hansı kommunikativ tapşırıqlara üstünlük verilməlidir? Qrammatik qaydaların konkret təhrifinə, yoxsa izahlı təqdimatına üstünlük verilməlidir? "Can I", yoxsa "Would you mind if I" kimi ifadələrə üstünlük vermək daha doğru olardı? Qeyd etmək lazımdır ki, çox sayda fundamental bir-birinə bənzər kommunikativ funksiyalar və mikro funksiyalar təqdim etmək olar. Lakin bunların arasında yalnız bir neçəsi tədrisçilər tərəfindən istifadə olunmaqdadır. Yaxşı olardı ki, proqramların tərtibatı zamanı analitik tələbləri ənənəvi üsula yönəldə biləcək və "əsaslı özül" yanaşmasına istiqamətləndirə biləcək hallara yol verilməsin. Funksional yanaşmada, qrammatika və lüğətin öyrənilməsinə kommunikativ baxımdan faydalı, önəmli olmaq məqsədilə geniş yer ayrıla bilər. Məlumdur ki, qrammatika bir çox illər qaydalar toplusu kimi təqdim edilib və bir çox ölkələrdə hələ də belə tədris edilməkdədir. Qrammatik biliklər vacibdir, lakin o, elə təqdim edilməlidir ki, tələbələr mənalı, səlist, müvafiq kommunikasiya qura bilsin. Öyrəncilər qrammatik səhvlərin müəllim tərəfindən düzəldilməsinə vərdiş etmişlər. Tələbələr mövzunu dərk etdikcə öz səhvlərini özləri düzəldirlər. Bundan sonra onlar sərbəst şəkildə mövzunu kommunikativyönlü dinləmə, nitq, oxu və yazı fəaliyyətinə tətbiq edə bilirlər. O da məlumdur ki, tədrisçilərin bir qismi qrammatikanı əsaslı, digər bir qismi isə kommunikasiya daxilində təqdim edir. Müasir tədrisçilər arasında yuxarıda qeyd olunanları birləşdirərək daha fərqli, yeni bir istiqamətə "eklektik yanaşmaya" müraciət edənlər də az deyildir. Bu yanaşma bir çox metod və yanaşmalardakı ən effektli aspektləri özündə birləşdirir. Eklektik yanaşma funksional yanaşma ilə daha oxşar xüsusiyyətlərə malikdir. Lin və Qreten onu aşağıdakı səciyyəvi xüsusiyyətlərə ayırırlar:

1. Tələbələr qrammatikanı təbii yollarla öyrənir və tətbiq edirlər. Dinləmə, nitq, yazı, oxu fəaliyyətləri hər biri geniş şəkildə tətbiq edilir.
2. Müəllim xarici dili əşya, şəkil, hərəkət və s. göstərməklə təqdim edir.
3. Real həyatdan götürülən gerçək mövzulara üstünlük verilir.
4. Qrammatika ilə kommunikasiya arasında tarazlıq.

Onların fikrincə, qrammatikaya kommunikasiya daxilində diqqət ayırmaq ən səmərəli yoldur. Qrammatik formaya diqqət yönəltmədən birbaşa kommunikasiyaya keçmək əsassız hesab edilir. Funksional tədris abstrakt və nəzəri biliklərə deyil, praktik və konkret biliklərə üstünlük verir. Funksional yanaşmada təkcə qrammatik qaydalar, dil prinsipləri deyil, onun istifadəsi əhəmiyyətlidir. Dilin əsası məna kontekstləri şəklində təqdim olunur. Bu kontekstlərdən istifadə edərək fasilitatorlar öyrəncilləri kommunikasiyaya cəlb etməlidirlər. Deməli, funksional tədrisin əsas istiqaməti kommunikasiyadır və bunun əsasını da xarici dilin dərs boyu istifadəsi təşkil edir. Məqsəd tələbələrin qrammatik savadlı nitqə yiyələnmələrinə nail olmaqdır. Riçard və Rodger belə qeyd edirlər: "Kommunikasiya müəllimin müxtəlif mövzular seçməsi ilə həvəsləndirici, stimullaşdırıcı ola bilər."

Həyatımızda baş verən reallıqları mövzu kimi təqdim etməklə, tələbələri həqiqi aləmə cəlb etməklə daha səmimi kommunikasiya əldə etmək olar. İndividual yerinə yetirilən işlərlə kommunikativ tapşırıqlar etmək mümkün olsa da, əməkdaşlıq şəraitində qrup və cüt şəkilli yerinə yetirilən işlər individual aparılan işlərdən daha effektli nəticələr verir. Çünki problemin həllində tələbələrin birgə müzakirələri effektli bilik əldə etmələrinə yardımçı olmaqla yanaşı onları

öyrənmə prosesinə cəlb edir. Bu o demək deyil ki, individual işlərə son qoymaq lazımdır, əksinə, individual iş fəaliyyətinə daha çox rəngarənglik gətirmək üçün digər fəaliyyətlərə tez-tez müraciət etmək vacib amillərdəndir. Müəllim zəngin bir mühit yaratmağa çalışmalı, gerçək həyat mövzularına daha böyük önəm verməklə tələbələrin ona bağlanmasına şərait yaratmalıdır. Yaxşı olar ki, oturacaqlar elə düzülsün ki, hamı bir-birini görə bilsin. Bu zaman müzakirələr daha canlı həyata keçmiş olar. Əməkdaşlıq şəklində aparılan işlərdə öyrəncilər qarşılarına məqsəd qoyurlar, öyrənəcəkləri mövzunu planlaşdırırlar, öyrənmə prosesində birgə işləyirlər, mövzunu sona yetirib əldə etdikləri yeni bilikləri nümayiş etdirirlər. Öz çıxışlarını müzakirə edib qiymətləndirirlər. Doğru olar ki, müəllim evə tapşırıq verərkən tələbələrin arzu və istəklərini nəzərə alsın.

Mükəmməl nitq əldə etmək üçün qrammatika və ünsiyyəti bir araya gətirmək önəmlidir. Qrammatikanın innovativ yollarla tədrisə daxil olması məqsədəuyğundur. Ünsiyyətdə olarkən tələbə ingilis dilindən geniş istifadə etməklə fikir anlaya və anlada bilir. Bu zaman yaranan səhvlərdən çəkinmək lazım deyil. O, dil öyrənmə prosesinin təbii bir hissəsidir. Müəllim tədbirli olmalı, qeydlər aparmalı və sonda onları müzakirəyə qoymalıdır.

Kommunikasiya dili mənimsəməyə, ona sahiblənməyə açılan böyük imkandır. Dilin mənimsənilməsində, xüsusilə də xarici dilin öyrənilməsində kommunikasiyanın da rolu əvəzsizdir. Təhsilvermə fəaliyyəti dərs prosesinin rahat və sərbəst keçməsi üçün ayrı-ayrı komponentlərə bölündüyü kimi, dil özü də ayrı-ayrı bölmələrdən ibarətdir. Dərs zamanı dil öyrənənlər adətən çətinliklərdən uzaqlaşır və daha asana aludə olmaqla tədricən dili öyrənməyə davam edirlər. Belə vəziyyətlərdən uzaq olmaq üçün əvvəlcədən onların bilik səviyyələri yoxlanılmalı, dil öyrətmə prosesinin düzgün səviyyəsi seçilməli və tələbələr tədricən buna alışdırılmalıdırlar. Bu baxımdan müəllim qrammatikanın tədrisi prosesi zamanı bir çox linqvistik prinsipləri nəzərdən qaçırmamalıdır. Bu dil prinsipləri müəllimin qarşıya qoyduğu və həyata keçirəcəyi əsas məqsədlər olmalıdır. Bunları aşağıdakı bəndlərə ayırmaq olar: 1. Dil nümunələrinə yiyələnmək və onları yaddaşa həkk etmək. 2. Dildə avtomatlaşmış vərdişlərin yaradılması 3. Ali məktəb tələbəsi səviyyəsində dinləmə və nitq söyləmə vərdişlərinin inkişafı. 4. Qrammatikanın tələbələrə yeni metodlarla təqdimatı. Əgər dil öyrənənlərə dil və onun bölmələri tədris olunursa, biz tələbələrə dilin və qrammatikanın nə olduğunu onların səyi olmadan izah etməməliyik, əksinə, tələbələrin özlərinin nəyisə etmələri ilə biliyə yiyələnmələrinə nail olmaq daha məqsədəuyğun hesab olunur. Həm müəllim, həm də tələbələrin dilə necə yanaşmaları və hansı yollarla mənimsəmə prosesini bilməsi zəruridir. Müəllim tələbələrdə mövzuya maraq yaratmalı və dinləməni onların istəkləri əsasında həyata keçirməlidir. Məsələn, keçmiş bitmiş zaman tədris edildikdən sonra tələbələrə bir neçə mətn təqdim edilir və hansı mətni dinləmə seçimi onların üzərinə buraxılır. Müəllim tələbələri dərsə cəlb etmək məqsədilə öz keçmişi barəsində, tələbələrə bu zaman formasından istifadə etməklə məlumat verə bilər. Belə dinləmə növü son zamanlar ingilis və amerikan məktəblərində dəb halı almış canlı dinləmə adlanır. Elm sübut edir ki, ünsiyyət qurmaqla dil öyrənənlər daha çox inkişaf əldə edirlər, çünki bu zaman danışan anlamağa və anlatmağa çalışır. Dərs zamanı oyunlardan, simulyasiyalardan istifadə etməklə, tələbələr arasında maraqlı kommunikasiya yaratmaq olar. Rollu oyunlar tələbələrin yaradıcı təxəyyülünü inkişaf etdirməklə yanaşı ünsiyyət vərdişləri, həmçinin mövzunun asan dərk edilməsinə kömək edən emosional təəssürat yaradır. Bu oyunlar dərsdə yeknəsəqliyi aradan qaldırır və onun canlı və maraqlı keçməsinə imkan verir. Tələbələr indiki qeyri-müəyyən zamandan istifadə etməklə hərə öz evini təsvir edə, necə evdə yaşamağı üstün tutduqlarını müzakirə edə bilərlər və ya gələcək qeyri- müəyyən zamandan istifadə etməklə tətilə nə planlaşdırdıqları barədə və s. söhbətlər qura bilərlər. Söhbətlərin təbii və ma-

raqlı olması üçün tələbələr həqiqi, olmuş hadisələrə uyğun dialoqlar qura bilərlər. Məsələn, aşağıdakı dialoq keçmiş qeyri-müəyyən zamanda aparılır:

L: Did you go anywhere last summer?

E: Yes, I did. My sister and I went to Arizona. We saw the Grand Canyon.

L: Really? Did you like it?

E: Oh, yes. We loved it.

L: Did you go hiking there?

E: No, we didn't. Actually, we rode horses. And we also went white water rafting on the Colorado River!

L: Did you have fun?

E: Yes, we did. We had a great time.

Ünsiyyətin yaradılması üçün ümumbəşəri problemləri mövzu kimi ortaya qoymaq olar və ya mağaza oyunları, ada oyunları, lətifələr söyləmək, qrammatik materialı izah etmək və s. təşkil etmək olar. Məsələn, yeni bir malı alıcıya necə təqdim etmək olar və s. Bəzi tələbələrə oyunlarla dərsin təqdimatı maraqlı görünsə də, digərləri bunu maraqlı hesab etməyə bilərlər. Jim Skrivener öz əsərində tələbələrin rollu oyunlar haqqında bəzi fikirlərini belə qeyd etmişdir: 1. Mən başqa tələbələrlə ünsiyyətdə olmaq istəmirəm, onlar pis danışırlar, mən yalnız sizi dinləmək istəyirəm. 2. Danışmaq sonraya qalsın, mənə daha çox qrammatikanı tədris edin. 3. Mən çox danışıram, amma siz mənim səhvlərimi düzəltmirsiz, belə getsə, mən təkmilləşməyəcəyəm." Müəllifin qeyd etdiyi fikirlərə bir çox qruplarda rast gəlmək mümkündür. Belə hallarla rastlaşmamaq üçün müəllim təqdim edəcəyi dərsi əvvəlcədən planlaşdırmalı və oyunların keçirilməsinin nə zaman uyğun olduğunu aşkarlamalıdır. Tələbələrin bu barədə fikirlərini, hansı mövzu üzərində işləmək istədiklərini öyrənmək doğru olardı. Əgər tələbələr daha çox qrammatik tapşırıqlar üzərində söhbət qurmaq istəyirlərsə, onlara bundan bəhrələnmək üçün şərait yaradılmalıdır. Məsələn, müəllim onları iki qrupa bölüb, hər ikisinə də zaman formalarının düzgün tərtib edilmədiyi mətnlər təqdim edir. Mətndəki cümlələr quruluş baxımından tam fərqli olmalıdır. Tələbələr ingilis dilində mübahisələr edərək problemi çözməyə çalışırlar. Dil öyrənənlər yalnız sözləri, qrammatikanı, tələffüzü öyrənmirlər, onlar iş birlikləri qurarkən, qeyri-formal məclislərdə iştirak edərkən, lətifə söyləyərkən, mağazadan nə isə alarkən necə kommunikasiya yaradılırsa, ingilis dilində də ünsiyyəti, ayrı-ayrı janrlarda uyğun formada qurulmalıdır. Yaddan çıxarmaq olmaz ki, insan xeyirxah ünsiyyətə meyllidir.

**Məqalənin aktuallığı.** Tədrisin aşağı mərhələsində ayrı-ayn aspektləri öyrənmədən yazılı və ya şifahi nitq bacarıqlarına yiyələnmədən, eşidib anlama vərdişləri olmadan, qrammatikanın tətbiqinə yiyələnmədən xarici dilin mənimsənilməsi qeyri-mümkündür. Qrammatikanın tədrisinin mənimsənilməsində dilin bütün aspektlərinin rolu böyükdür. Dinlənilən nitqi və ya oxunulan mətni başa düşmək üçün təkcə sözləri başa düşmək kifayət deyildir, bunun üçün dilin qrammatik quruluşuna da bələd olmaq lazımdır.

**Məqalənin elmi yeniliyi.** Qrammatik biliklər vacibdir, lakin o elə təqdim edilməlidir ki, tələbələr mənalı, səlist, müvafiq kommunikasiya qura bilsin. Öyrəncilər qrammatik səhvlərin müəllim tərəfindən düzəldilməsinə vərdiş etmişlər. Tələbələr mövzunu dərk etdikcə öz səhvlərini özləri düzəldirlər. Bundan sonra onlar sərbəst şəkildə mövzunu kommunikativyönlü dinləmə, nitq, oxu və yazı fəaliyyətinə tətbiq edə bilirlər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və ali məktəblərin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Lewis, Michael. “The Lexcal Approach: The State ofELT and a Way Forward. Bester Here 22-22.

2. Wilkins, David A. “Linguistics in Language Teaching” Cambidge. MA MIT Press. Copyright 2008 Transparent Language, Inc. p. 111.,1972.

3. Lewis, Michael. “The Lexcal Approach: The State ofELT and a Way Forward. 2 L 2.

4. Richards, J.C. and T. S. Rodgers “Approaches and Methods in Language Te-r-g Zamrnfze CUP 2001 p.19.

5. L. Hashemi with Raymond Murphy “English Grammar in Use” Supplemental. E CUP 1995.

6. J. Richard. “Communicative Language Teaching Today” Cambridge UP 2006 p-5

**Н.С. Гулиева, Р.Ф. Сафарова**.

## Роль грамматики в развитии устной и письменной речи студентов

### Резюме

В статье повествуется о роли грамматики в развитии устной и письменной речи студентов на английском языке. Преимущества коммуникативного метода доказываются высказываниями из произведений ученых-лингвистов. В статье отмечается, что обучение грамматике должно проводиться с целью усовершенствования коммуникации, ее правильного направления. В статье затрагиваются инновационные пути обучения грамматике, а также большие возможности ее усвоения.

**N.S. Guliyeva, R.F. Safarova**

## The role of grammar in the development of oral and written speech of students

### Summary

The article describes the role of grammar in the development of oral and written speech of students in English. The main aspects of the communicative method are proved scientifically by giving examples from the scholars. It is noted in the article that the grammar and vocabulary of the target language must be taught to improve the communication, to make it fluent and to develop it to a higher extent. Innovative methods of grammar and the ways of its comprehension were highlighted in the article.

**Redaksiyaya daxil olub:**19.11.2021